## Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Bakı Dövlət Universiteti

**Şərqşünaslıq fakültəsi**

**Türk filologiyası kafedrasının**

**Türk ədəbiyyatı üzrə bakalavr pilləsi**

**Azərbaycan bölməsi üçün fənn**

# Proqramı

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Bakı Dövlət Universiteti**

***Şərqşünaslıq fakültəsi***

***Türk filologiyası kafedrasının***

***Türk ədəbiyyatı üzrə bakalavr pilləsi***

***Azərbaycan bölməsi üçün fənn***

# Proqramı

**İstiqamət HSM-020000- Filologiya**

**İxtisas HSM- 020003- a**

**Azərbaycan Respublikası Təhsil Nazirinin 20.11.2008-ci il**

**tarixli 1263 saylı əmri ilə fənn proqramı kimi təsdiq edilmişdir.**

**Tərtib edən:** **Xəndan Aydan**

Filologiya elmləri namizədi

**Elmi redaktor:** **Rüfət Rüstəmov**

Filologiya elmləri doktoru, professor

**Rəyçilər:** **Əsgər Rəsulov**

Filologiya elmləri doktoru, professor

**Ramazan Əhmədov**

Filologiya elmləri namizədi,dosent

# IZAHAT VƏRƏQİ

Türk ədəbiyyatı fənni Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin türk dili və ədəbiyyatı şöbəsində tədris olunur. Kursun həcmi 366 saatdır. Tələbələr II kursdan etibarən Türk ədəbiyyatını öyrənməyə başlayırlar. İlk olaraq onlar türk folkloru haqqında məlumat alırlar. Bu zaman onlara qədim türk dastanları,əfsanələr,atalar sözləri,manilər,türkülər v.s haqqında məlumat verilir.

Ədəbiyyatın materialı dildir.Hər bir xalqın dilinin xüsusiyyətləri keçirdiyi inkişaf prosesi və dəyişmələr, bu xalqın ədəbiyyatının da xüsusiyyətlərini təyin etməkdədir.Bununla əlaqədar olaraq məşhur türk alimi Fuad Köprülü belə bir fikir söyləmişdir: " Ədəbiyyat tarixi, ümumiyyətlə tarixin,daha səhih bir ifadə ilə, mədəniyyət tarixinin çox mühüm bir qismidir.Bir millətin uzun əsrlər əsnasında keçirdiyi fikri və hissi təkamülü göstərən bütün fikir məhsullarını tədqiq edərək,onun mənəvi həyatını olduğu kimi-yaxud ona yaxın bir şəkildə-yaşadmağa çalışan canlı bir tarix şöbəsidir". Demək ki, ədəbiyyatın tarixi inkişaf dövrləri bir başa xalqın inkişaf mərhələlərilə əlaqəlidir. Türk ədəbiyyatı tarixinin inkişaf dövrləri də türk tarixilə bağlıdır. Bu ədəbiyyat tarix içində inkişaf dövrlərinə görə dəyişmiş və günümüzə qədər gəlib çatmışdır.

Türk toplumunun tarixində üç dövr vardır:

1. İslamın qəbulundan öncəki dövr.
2. İslamın qəbulundan sonrakı dövr.
3. Avropada elm sahəsində, texnologiyada meydana gələn inkişaf ilə ortaya çıxan həyat tərzini mənimsəməyə çalışılan dövr,yəni Qərb mədəniyyətinin təsiri dövrü.

Türk ədəbiyyatı tarixinin inkişaf dövrləri də bu bölgüyə əsaslanmaqdadır. İslamın qəbulundan öncəki türk ədəbiyyatı, islamın təsiri altındakı ədəbiyyat və qərbin təsiri altındakı ədəbiyyat.

İslamın qəbulundan öncəki dövr türk ədəbiyyatı şifahi və yazılı ədəbiyyata ayrılır.Şifahi türk ədəbiyyatı türklərin yazıdan istifadə etmədikləri dövrdə meydana gəlmişdir. Bu ədəbiyyat özülünü ilk olaraq din və ov mərasimlərindən almışdır. Qədim türklərdə müxtəlif mərasimlərdə iştirak edərək ,orada şeir söyləyib,qopuz çalaraq xalqı coşduran sənətkarlar olmuşdur ki,bunlara şaman, kam, oyun, baqsı,ozan deyirdilər.Bu sənətkarlara sonralar aşıq adını vermişlər.İlk türk mənzumələri öztürkcə, heca vəznində söylənilirdi. Nəzm ölçüsü isə dördlüklər olmuşdur.

Yazılı türk ədəbiyyatı yazının türklər arasında yayılmasıyla meydana çıxmışdır.Türklər Göytürk və Uyqur əlifbasından istifadə etmişlər.Göytürk əlifbasıyla yazılmış olan ən mühüm yazılı abidələr Orxon abidələridir. Bilgə Tonyukuk və Yulığ Tiginin müəllifi olduğu bu yazılar sadə və anlaşılan dildə yazılmışdır.

Türklər VII əsrin sonlarında VIII əsrdə İslam ordularıyla qarşılaşmış oldular. X əsrin ilk yarısından etibarən böyük qruplar halında İslam dinini qəbul etməyə başladılar. İslamın qəbulundan sonra türk cəmiyyətində böyük dəyişikliklər baş vermiş oldu. Ərəb əlifbası ilə ərəb dili Türk yazıçı və alimləri arasında yayılmağa başladı.Ərəb ədəbiyyatı, fars ədəbiyyatı türk ədəbiyyatına öz təsirini göstərmiş oldu. Beləliklə ədəbiyyatda əsaslı dəyişikliklər baş vermiş oldu.

XI və XII əsrlərdən etibarən Türk ədəbiyyatı Divan ədəbiyyatı və Xalq ədəbiyyatı olaraq öz inkişafını davam etdirdi. Divan ədəbiyyatını həm də yüksək zümrə ədəbiyyatı, klassik ədəbiyyat da adlandırırlar.Bu dövr şairləri əsasən əruz vəznində yazıb yaratmışlar.Ədəbiyyatda qəsidə, qəzəl, məsnəvi, rübai kimi nəzm şəkil və növləri hakim olmuşdur.Divan ədəbiyyatının ən məşhur sənətkarları Bağdadlı Ruhi, Baki, Nəfi, Nabi, Nedim, Şeyx Qalib v.s idilər.Eyni zamanda xalq ədəbiyyatı da öz inkişaf yolunu sürdürməkdəydi.Bu ədəbiyyat əsasən oxumamış xalq topluluqları arasından çıxan sənətkarlar tərəfindən yaradılırdı.Bu ədəbiyyat iki qola

ayrılmışdır: Dini mövzuların xaricində fəaliyyət göstərən və Təsəvvüf ədəbiyyatı. Dini mövzulara toxunmadan fəaliyyət göstərənlər arasında Qaracaoğlan, Dərdli, Ərzurumlu Əmrah, Seyrani, Dadaloğlu kimi sənətkarları misal göstərə bilərik. Təsəvvüf ədəbiyyatının mümayəndələri isə Əhməd Yasəvi, Sultan Vələd, Yunus Əmrə, Kayqusuz Abdal, Pir Sultan Abdal və başqaları olmuşdur.

XVIII əsrin axırı XIX əsrin əvvəllərində Osmanlı İmperiyası dərin bir iqtisadi və siyasi böhran keçirdirdi. Türkiyə Avropa dövlətlərindən istər siyasi,istərsə də iqtisadi cəhətdən asılı vəziyyətə düşürdü. Dövlət quruluşunda əsaslı dəyişikliklərin həyata keçirilməsi labud idi.Bu səbəbdən hakim qüvvələr bəzi islahatlar həyata keçirməli oldu. 1839 cu il 3 noyabr tarixində Tənzimat fərmanı elan olundu. Bu fərmanın elanıyla Türk tarixində siyasi,iqtisadi,mədəni həyatın yeni mərhələsi başlandı. Bu dövr Türk ədəbiyyatını Tənzimat dövrü türk ədəbiyyatı adlandırırlar.Tənzimatçı şair və yazıçılar İbrahim Şinasi, Namıq Kamal, Əbdülhəq Hamid, Əhməd MİdhƏd, Rəcaizadə Mahmud Əkrəm, Ziya Paşa v.b. dır.Bu dövrdə məhz ilk teatr açılmış olur, ilk qəzetlər çap olunur, məktəblər,universitet açılır. Ədəbiyyatda yeni janrda,yeni məzmunda əsərlər meydana çıxır.

1891 ci ildə nəşr olunmağa başlanan “Sərvət-i Fünun” jurnalının ətrafında toplaşan şair və nasirlərin ədəbi topluluğuna “Sərvət-i Fününçular” adı verilmişdir. Onlar tənzimatçılardan sonrakı dönəmdə ədəbi arenada fəaliyyətlərini sürdürmüş oldular. Bu yazıçılar Tofiq Fikrət, Cənab Şəhabəddin, Mehmed Rauf,Xalid Ziya və başqalarıdır.

XX əsr Türk ədəbiyyatı,milli ədəbiyyatın əsas xüsusiyyətlərini milli qaynaqlara dönüş, türkçəyə qayıdış, realist dünyagörüşü, Anadolu mövzusunun işlənilməsi, yenidən milli vəzn hecaya qayıdış, gərəksiz məcazlardan uzaqlaşma v.s bu kimi yeniliklər təşkil etməkdədir. Bu dövrün əsas sənətkarları M.Ə.Yurdaqul,M.A.Ərsoy, Y.Kamal, R.Tofiq, Ə.Q.Tecər, Z.Göyalp, R.Nuri, X.Ə.Adıvar, F.Nafiz, Y.Qədri, O.Vəli və başqalarıdır.

## Türk Ədəbiyyatı Fənni Üzrə Proqram

1. Türk ədəbiyyatının tarixi dövrləri. İslamın qəbulundan öncəki türk ədəbiyyatı. Dastanlar dövrü. Türklərin ilkin inancları,mərasimlər. İlk ədəbi nümunələr. Saka türkləri və onların qədim əfsanələri. “Alp Ər Tunqa”,”Şu” əfsanələri.
2. Hun türkləri.(e.ə.III-II əsrlər). Oğuz kağan dastanı. Dastanın əsas ideya xətti, qəhrəmanları. Oğuz Kağan dastanının türk xalqlarının folkloruna təsiri.
3. Göytürklər. Göytürk əfsanələri.Yaradılış dastanları. Bozqurd əfsanəsi. Qurd obrazının dastanlarda əksi. “Ergenekon dastanı”.
4. Əski türklərin dini mərasimləri. Göy Tanrı, şamanizm, manehizm haqqında.
5. İslamaqədərki dövrün ilk yazılı nümunələri. Orxon kitabələri.
6. Şifahi türk ədəbiyyatı və folklor janrları.Dastan, mani, türkü, fıkra, atalar sözü, bilməcə, ninni, alqış, qarğış, əfsanə, masal. Dini məzmun daşıyanlar: ilahilər, nəfəslər, hikmətlər v.s.

Qaragöz,ortaoyunu, məddah kimi qədim dram tamaşaları haqqında məlumat.

Türk aşıq ədəbiyyatının nümayəndələri haqqında məlumat. Aşıq ədəbiyyatının əsas xüsusiyyətləri. Öksüz Dədə, Qaracaoğlan, Gövhəri, Aşıq Şenlik, Seyrani, Aşıq Veysəlin həyat və yaradıcılıqları.

## İslamın qəbulundan sonrakı dövr türk ədəbiyyatı.

Islamın qəbulundan sonra yaranan ilk yazı nümunələri.Qaraxanlılar dövrü türk ədəbiyyatı. Yusuf Xas Xacib və onun “ Kutadqu Bilik “ əsəri. Ədib Əhməd Yüknəki və onun “Ətabətül Həqayiq” əsəri.

Böyük Səlcuqlu Dövrü (1040-1207) ədəbiyyatı.

Mahmud Kaşqari və onun “Divan-i Lüqat it Türk” əsəri (1072). Əsərin yazılma səbəbləri. Əsər haqqında məlumat. Əsərin tədqiqinə dair məlumat.

Təsəvvüf ədəbiyyatı.Təsəvvüf haqqında məlumat. Bu ədəbiyyatın əsas nümayəndələri.

Pir-i Türkistan Hoca Əhməd Yasəvi (?-1166) .Onun “Divan-i Hikmət” əsəri. Yasəvi haqqında olan mənkibələr haqqında.
Mövlana Cəlaləddin Rumi (1240-1321). Ruminin həyatı və yaradıcılığı. “Məsnəvi” əsəri haqqında. “Fih-i Mafih” əsəri.
Yunus Əmrə (1240-1321) nin həyatı və yaradıcılığı. Yunus Əmrə poeziyasının əsas xüsusiyyətləri. Yunus Əmrənin şeirlərinin dili haqqında. Yunus Əmrə yaradıcılığının tədqiqinə dair məlumat. Y.Əmrənin Türk ədəbiyyatına təsiri.
Sultan Vələd Mövləvilik təriqətinin qurucusu və Rumi məktəbinin təbliğatçısı kimi. Sultan Vələdin poeziyası.
Aşıq Paşanın (1272-1333) həyatı və yaradıcılığı. Onun “Fəqirnamə” və “Qəribnamə” əsəri haqqında. Aşıq Paşanın saf türkçə haqqqında söylədiyi fikirləri.
Təkkə ədəbiyyatının əsas xüsusiyyətləri. Qayqusuz Abdal(1397-1444) .Onun həyatı haqqında günümüzə gəlib çatan əfsanələr. Qayqusuz Abdalın yaradıcılığı. Onun “Divan”ı və “Budalanamə” əsərləri. “Budalanamə”nin məzmunu və təhlili.
Süleyman Çələbi və onun “Mövlüd” əsəri.”Mövlüd”ün yazılış səbəbi və əsərin əsas xüsusiyyətləri.
Əhmədinin (1329-1413) həyat və yaradıcılığı. “Cəmşid-i Xürşid”, “İskəndərnamə” əsərləri haqqında.
Germiyanlı Şeyxi( -1428) nin həyatı və yaradıcılığı. “Xarnamə” əsərinin yazılma tarixçəsi. Bu əsərin satirik janrda yazılmış ilk əsərlər arasındakı yeri haqqında. Şeyxinin “ Xosrov və Şirin” əsəri. Əsərin Nizaminin eyni adlı əsərilə müqayisəsi.
Əhməd Paşanın həyatı və yaradıcılığı.

**XVI əsr Təkkə Ədəbiyyatı**

XVI əsr təkkə poeziyası şeyxlər,təsəvvüfə bağlı olan sənətkarlar tərəfindən davam etdirilir. Bu tərzdə yazıb yaradan sənətkarlar arasında Pir Sultan Abdalın xüsusi yeri. P.Abdalın həyatı. P.Abdalın ideyaları. P.Abdalın poeziyasında əsas mövzular. Nefesler.

**Divan Ədəbiyyatı**

Divan ədəbiyyatının əsas xüsusiyyətlıəri. İstifadə olunan nəzm şəkilləri, vəzn, qafiə, əsərlərin dili. Divan ədəbiyyatında işlənilən əsas mövzular.Məhəbbət, təbiət, cəmiyyət, rindlik, qəhrəmanlıq mövzularında yazılan əsərlər.

Divan poeziyasında əsas qəhrəmanlar: Hz.Məhəmməd, Hz.Adəm,Hz.Süleyman, Cəmşid, Nərgis və s.

XVI əsr divan şeiri.: Xoca Məsud, Əhmədi, Qadı Bürhanəddin.

Necati Bəy(?- 1509). Həyatı və yaradıcılığı.

Divan ədəbiyyatında nəsr. Aşıq Paşazadə (1393-1481) və onun "Təvarih-i Aı-i osman" əsəri. Sinan Paşa (1440-1486), Yazıcıoğlu Ali. Həyatı və yaradıcılığı.

Baki (1526-1600) nin həyatı və yaradıcılığı. Bakinin ədəbi şəxsiyyəti ,dünyagörüşü, əsərləri.

Taşlıcalı Yahya Bəy (?-1582) in həyatı və yaradıcılığı. "Şah-u Gəda" əsəri haqqında.

Bağdadlı Ruhi(?-1605) nin poeziyası.

XVII əsr divan ədəbiyyatı. Qısa ədəbi şərh. Nəfinin(1582-1636) həyatı. Nəfinin satiraları. Nəfinin ölüm tarixçəsi. Nəfinin ədəbi şəxsiyyəti. "Sihəmi Qəza" şeirlər toplusu.

Yusuf Nabinin (1642-1712) həyat və yaradıcılığı. "Xeyriyyə" və "Xeyrabad" poemaları.

Şeyxülislam Yəhya Əfəndi (1552-1643) nin həyatı və poeziyası. Katib Çələbi(1608-1656) nin həyatı. Katib Çələbinin əsərləri. "Keşfüz Zünun", "Cihannüma", "Fezleke", "Mizanül Hakk" və s.

Evliya Çələbi (1611-1682) nin həyatı və yaradıcılığı. Evliya Çələbinin əsərləri. Naima ( 1649-1712) tarixçi kimi. Həyatı və yaradıcılığı.

XVIII- XIX əsr divan ədəbiyyatı. Qısa şərh. Lalə dövrü ədəbiyyatının əsas xüsusiyyətləri. Nədimin( 1692-1730) həyat və yaradıcılığı. Nədimin poeziyasında lalə dövrünün əksi. Nədimin şeirlərində İstanbul mövzusu. Nədim yaradıcılığında yerliləşmə cərəyanının təzahürü. “ İstanbul qəsidəsi”.

Şeyx Qalib (1757-1799) divan ədəbiyyatının son şairi kimi. Şeyx Qalibin həyatı və yaradıcılığı. “Hüsnü Aşk” əsəri haqqında. Əsərin mövzusu və əsas ideyası. Şeyx Qalibin ədəbi şəxsiyyəti. Sebki Hindi cərəyanı və Şeyx Qalib poeziyası.

Enderunlu Fazıl (1759-1810). Həyatı və yaradıcılığı. “Defter-i Aşk” “Zenanname”,”Hubanname”, “Çengіname” əsərləri. Enderunlu Vasıf(?-1824) poeziyasında xalq ədəbiyyatı motivləri. “Ana ilə Qız” əsəri.

**Qərbin təsiri altında Türk ədəbiyyatı.**

Tənzimat ədəbiyyatı.

(xıx əsrin II yarısı)

Qısa ədəbiyyat şərhi. Tənzimat fərmanının elanından sonra ədəbi mühit. Maarifçilik sahəsində həyata keçirilən yeniliklər. İlk mətbu orqanlar. “Tərcüman-i Əhval”,” Təsvir-i Əfkar” qəzetlərinin nəşri və gətirdiyi yeniliklər. “Yeni Osmanlılar” cəmiyyəti haqqında. Tənzimat ədəbiyatının əsas xüsusiyyətləri. Tənzimat ədəbiyyatının mərhələləri.

İbrahim Şinasi (1826-1871)nin həyatı və yaradıcılığı. Türk ədəbiyyatında ilk pyes “Şair Evlənməsi”. Şinasinin türkçənin sadələştirilməsi uğrundakı fəaliyyəti.

Namiq Kamal(1840-1888) ın həyatı və yaradıcılığı. Namiq Kamalın poeziyası. Namiq Kamalın pyesləri. “Vətən yaxud Silistrə”pyesi. Namıq Kamalın romanları. “İntibah “ romanının təhlili. Namıq Kamalın publisistikası.

Ziya Paşa(1825-1880) nın həyatı və yaradıcılığı. “Zəfərnamə”, “Tərciibənd”,”Tərkibbənd” əsərləri. Ziya Paşanın tərcümələri. “Harabat” və “Rüya” əsərləri haqqında.

Əhməd Midhəd Əfəndi(1844-1912) nin həyatı və yaradıcılığı. Ə.Midhədin "Fəlatun Bəylə Raqim Əfəndi" romanı. Romanın əsas ideya xətti..Roman qəhrəmanlarının təhlili. "Hasan Mellah" (1874), "Hüseyn Fellah"(1875) ,"Henüz 17 yaşında" romanları. Ə.Midhədin hekayələri.

Rəcaizadə Mahmud Əkrəmin (1847-1914) həyatı və yaradıcılığı. Sentimentalizm cərəyanının təsiri. Əsərlərinin əsas mövzuları. Rəcaizadənin əsərlərində təbiət mövzusu. Rəcaizadənin əsərlərində ölüm mövzusu. Fransızsayağı həyatın tənqidi və "Araba sevdası" romanı. Rəcaizadənin hekayələri. Rəcaizadənin poeziyası."Zemzeme", "Ah Nejad" v.s.

Əbdülhəqq Hamidin (1851-1937) həyatı və yaradıcılığı. Hamidin poeziyası. "Məqbər" əsərinin əsas mövzusu, forma xüsusiyyətləri. Hamid yaradıcılığında təbiət mövzusu. "Səhra" əsəri. Hamidin ədəbi şəxsiyyəti və dünyagörüşü. Hamidin pyesləri. "Duhter-i Hindu" pyesi. "Əşbər " pyesi. Hamidin poeziyasının əsas xüsusiyyətləri. Hamidin üslubu. Səhnə əsərlərinin təhlili.

**XIX əsrin sonu XX əsrin əvvəllərində Türk ədəbiyyatı.**

"Sərvət-i Fünun" jurnalının nəşr tarixi haqqında. "Sərvət-i Fünun" çular. Sərvət-i Fünun ədəbiyyatının əsas xüsusiyyətləri.(Əsas mövzular,əsərlərin dili,üslub xüsusiyyətləri,janrlar).

Tofiq Fikrət (1867-1915) in həyatı və yaradıcılığı. Tofiq Fikrətin ideyaları. Fikrətin poeziyasının əsas xüsusiyyətləri. Tofiq Fikrətin ədəbiyyata gətirdiyi yeniliklər. "Rübab-i Şikəstə","Haluqun Dəftəri", "Şərmin", "Tarix-i Qədim" əsərləri. "Millət Şərqisi","Sis" şeirlərinin təhlili.

X.Z.Uşaqlıgil ( 1866-1945) in həyatı. Xalid Ziyanın yaradıcılığı. X.Ziyanın romanları. "Mai və Siyah", "Aşk-ı Memnu" romanları. Xalid Ziyanın hekayə yaradıcılığı.

Cənab Şəhabəddinin(1870-1934) həyatı və yaradıcılığı. Cənab Şəhabəddinin poeziyası və simvolizm cərəyanı. Şəhabəddinin nəsr yaradıcılığı.

Mehmed Raufun həyatı. M.Raufun yaradıcılığı. M.Raufun “Eylül” romanı ilk psixoloji roman nümunəsi kimi. Romanın əsas qəhrəmanları. Romanın əsas ideya xətti .

Əhməd Haşımn həyatı və yaradıcılığı. Simvolizm cərəyanının təsiri. “Merdiven”, “Göl Saatleri” əsərləri. Əhməd Haşımın nəsr yaradıcılığı.

Gənc Türklər inqilabından sonrakı ədəbiyyat (1908-1917). “Fəcr-i Ati” ədəbi qrupu. R.X.Karayın (1888-1965) həyatı və yaradıcılığı. “Memleket Hikayeleri” “Sürgün” romanı haqqında.

Cəlal Sahir Erozanın poeziyası. R.T.Bölükbaşı (1869-1949) poeziyası.”Serab-ı Ömrüm” kitabı haqqında.

M.Ə.Yurdaqul(1869-1944) un poeziyası.”Türkçe Şiirler”(1900) kitabı haqqında. M.Ə.Yurdaqulun əsas ideyaları. “Fazilet ve Asalet”(1890), “Türk Sazı”(1914), “Ey Türk Uyan”(1914),v.s kitabları haqqında.

Hüseyn Rəhmi Gürpınar (1864-1944) ın həyatı və yaradıcılığı. H.Rəhminin səhnə əsərləri. H.Rəhminin romanları. “Şık”(1888), “İffet” (1896), “Mürebbiye”(1899). H.Rəhminin hekayə yaradıcılığı. “Kadınlar Vaizi” (1920), “Gönül Ticareti”(1939),”Melek Sanmıştım Şeytanı”(1943), hekayə kitabları. H.Rəhmi yaradıcılığında naturalizm cərəyanının xüsusiyyətləri.

Əhməd Rasimin(1864-1932) həyat və yaradıcılığı. Əhməd Rasimin üslubu. “Falaka” əsəri. Əhməd Rasim bir publisist kimi. “Muharrir bu ya “əsəri.

## Milli Ədəbiyyat dövrü.

Milli ədəbiyyat dövrünün əsas xüsusiyyətləri. Əsas cərəyanlar. Türkçülük cərəyanı. İslamçılıq Cərəyanı. Osmanlıçılıq Cərəyanı haqqında

Ziya Göyalpın (1876-1924) həyat və yaradıcılığı. Göyalpın türkçülük ideyaları. Z.Göyalpın poeziyası. “Kızıl Elma” (1915), “Yeni Hayat”(1918), “Altun Işık”(1928) əsərləri. Z.Göyalpın nəsr əsərləri.

Milli Ədəbiyyat dövrünün əsas qruplaşmaları. “Gənc Qələmlər”, “Dərgah”, “Şairlər Dərnəyi”. Ömər Seyfəddinin ( 1884-1920) həyatı və yaradıcılığı. Yeni Lisan davası və Ö.Seyfəddin. Əsərlərinin əsas mövzuları. Ö.Seyfəddinin hekayələri. “Gizli Mabed”, “Xilaskar”, “Pembe İncili Kaftan” v.s.

Beş Hecaçı şairlər. Xalid Fəxri Ozansoy,Yusuf Ziya Ortaç, Enis Behiç Koryürek, Faruk Nafız Çamlıbel,Orxan Seyfi Orxon. Həyat və yaradıcılıqları. Faruk Nafizin “Han Duvarları” əsəri. Orxan Seyfinin “Peri Kızıyla Çoban Hikayesi”, Yusuf Ziyanın poeziyası və səhnə əsərləri.

**1918-1940 cı illər ədəbiyyatı.**

Tarixi şərait haqqında məlumat. Cumhuriyyət dövrü türk ədəbiyyatının əsas xüsusiyyətləri. M.A.Ərsoyun(1873-1936) həyatı və nyaradıcılığı.Safahat əsəri haqqında. M.Akif və İslamçılıq cərəyanı.

Xalidə Ədib Adıvarın (1883-1964) həyatı. X.Ədibin ictimai fəaliyyəti. “Ateşten Gömlek”, “Türkün Ateşle İmtihanı”, “Raikin Annesi”, “Sinekli Bakkal”, “Yeni Turan”, romanlarının təhlili. X.Ədibin hekayələri.

Y.K.Bəyatlı (1884-1958) nın həyatı. Y.Kamalın poeziyası. Y.Kamalın əsərlərinin məzmunu, forması. Y.Kamalın publisistikası. “Eski Şiirin Rüzgarıyla” kitabı və əski tərz şeirləri haqqında. “Səlimnamə” əsəri. Y.Kamalın “Kendi Gök Kubbemiz” kitabı və oradakı şeirlərin mövzusu və forma rəngarənliyi. Y.Kamal və əruz vəzni. “Bir Başka Tepeden”,”Sessiz Gemi”,”Süleymaniye de Bayram sabahı” şeirlərinin təhlili.

Rəşad Nuri Güntəkin(1889-1956) həyatı və yaradıcılığı. R.Nurinin romanlarının əsas mövzuları , roman qəhrəmanları. “Çalıquşu”, “Acımak”, “Yaprak Dökümü” romanlarının təhlili. “Anadolu notları” əsəri.

Xalidə Nüsrət Zorlutunanın(1901-1984) həyat və yaradıcılığı.”Git Bahar” şeiri. Xalidə Nüsrət poeziyasının əsas xüsusiyyətləri. Xalidə Nüsrətin romanları haqqında.”Küllər”,”Gülün Babası Kim”,”Aşk ve Zafer” romanları.

Yaqub Qədri Qaraosmanoğlu (1889-1973)nun həyatı və yaradıcılığı. “Kiralık Konak” romanının təhlili. “Milli Savaş Hikayeleri”.”Yaban” romanı.

Ə.H. Tanpınarın(1901-1962) həyatı və yaradıcılığı.Tanpınarın ədəbi şəxsiyyəti haqqında. Tanpınarın romanları.”Huzur”, “Saatleri Ayarlama Enstitüsü” əsərlərinin təhlili. Tanpınarın türk poeziyasındakı yeri. “Bursada Zaman” şeiri.

Ə.Q.Tecər (1901-1967) . Həyatı və yaradıcılığı. Tecərin səhnə əsərləri. “Koçyiğit Köroğlu”(1942), “Köşebaşı”(1948),”Bir Pazar Günü”(1959),”Satılık Ev”(1961) əsərləri haqqında. Tecərin poeziyasının əsas xüsusiyyətləri. “Nerdesin” şeiri.

Nəcib Fazil Qısakürək (1905-1983) həyatı və yaradıcılığı. Poeziyasının əsas xüsusiyyətləri. Qısaküräyin poeziya haqqında fikirləri. N.Fazilin səhnə əsərləri. “Sabır taşı”,”Bir adam Yaratmak”,”Tohum” pyesləri. “Sakarya Türküsü”, “Kaldırımlar”, “Ben” şeirləri.

Cahid Sıdqı Tarancı(1910-1956).Həyatı və yaradıcılığı. “35 yaş” şeiri. “Ziya ya mektublar” əsəri.

## 1950-80 ci illər.

S.F.Abasıyanık(1906-1954) həyatı və yaradıcılığı.Əsərlərinin əsas mövzuları. Ədəbi şəxsiyyəti. Poeziyası.Nəsr yaradıcılığı.Hekayələri.”Semaver”,”Lüzumsuz Adam”,”Havuz Başı”, “Son kuşlar”, “Mahalle Kahvesi” hekayələri.

S.Əlinin (1907-1965) həyatı və yaradıcılığı. Poeziyası. S.Əlinin hekayələri. S.Əlinin “Xəz Mantolu Madonna” əsəri.

S.Dərviş(1888-1965) həyatı və yaradıcılığı. “Fosforlu Cevriyyə” “Ankara Mahpusu” əsərləri.

“Garip” cərəyanı. Orxan Vəli Kanık, Oqtay Rıfat Xorozcu, Melih Cevdet Andayın poeziyası. “Garip”çilərin əsas fikirləri və ədəbiyata gətirdikləri yeniliklər.

N.Hikmət(1902-1963) həyatı və yaradıcılığı. Nazim Hikmətin ictimai-siyasi görüşləri. Poeziyasının əsas xüsusiyyətləri. Nazim Hikmət və sərbəst şeir. Nazim Hikmətin pyesləri. “Kafatası”, “Şöhrət və ya unudulan adam” pyesləri.

Orxan Kamal(1917-1970) ın həyatı və yaradıcılığı. Əsərlərinin əsas mövzuları və roman qəhrəmanları. “Hanımın Çiftliği” romanı. Orxan Kamalın hekayə yaradıcılığı.

Yaşar`Kamalın(1922-) həyatı və yaradıcılığı. Əsərlərinin əsas mövzuları. Yaşar Kamalın əsərlərində türk folkloru. “Tənəkə” əsəri. “İnce Memed” romanı. Yaşar Kamalın hekayələri.

Kamal Tahir(1915- ) in həyatı və yaradıcılığı. “Devlet Ana “ romanının təhlili.

Bekir Yıldızın həyatı və yaradıcılığı. Almaniyadakı türklər mövzusunda yazdığı əsərləri.

Müasir türk satirik ədəbiyyatının nümayəndəsi Əziz Nesinin həyatı və yaradıcılığı.Əziz Nesinin dramaturgiyası.Ə.Nesinin hekayə və romanları.”Gol Kralı”, “Damda dəli var” əsərləri.

Haldun Tanerin həyatı və yaradıcılığı. “Şeytan Tüyü” hekayəsi. Haldun Tanerin roman yaradıcılığı.

Nihal Atsızın həyat və yaradıcılığı. Ədibin tarixi araşdırmaları. Nihal Atsızın poeziyası.Nihal Atsızın romanları.”Ruh adam”, “Bozqurdların ölmü”,”Bozqurdlar dirilir” romanları.

Peyami Safanın (1899-1961) həyatı və yaradıcılığı. Peyami Safanən romanlarının təhlili. “Mahşer” romanı.

## Müasir yazıçılar

Müasir Türkiyə şair və yazıçıları haqqında ümumi məlumat.Türk ədəbiyyatında müasir dövrdə ədəbi axımlar haqqında məlumat.

Postmodernizm və son yeni .

Orxan Pamuk. Həyatı və yaradıcılığı. “Benim adım kırmızı”, “Kar”, “Kara Kitap” romanlarının əsas ideya xətti. Postmodernizm cərəyanı və Orxan Pamuk yaradıcılığı.

Elif Şafağın həyatə və yaradıcılığı. “Baba ve Piç” romanınlın təhlili. “Bit Palas”,”Siyah Süt”,”Aşk” romanları.

Kürşat Başarın(1963-) həyatı və yaradıcılığı.Hekayələri.

Yusuf Atılqanın (1921-1989) həyatı və yaradıcılığı. “Aylak Adam “ romanı.

### *Ədəbiyyat:*


1. Aydın Abi Aydın (Abıyev A.). Türkiyə ədəbiyyatı tarixi. Bakı,Tural,2005
2. Abıyev A. Ömər Seyfəddinin həyatı və yaradıcılığı,Bakı,Elm,1978
3. Araslı Nüşabə.Nizami və türk ədəbiyyatı,Bakı,Elm,1980
4. Aydan Xəndan. Yəhya Kamal Bəyatlı yaradıcılığının sənətkarlıq xüsusiyyətləri,Bakı,Nurlan,2002.
5. Babayev Aqşin.Nazim Hikmət,Bakı,İşıq,1978
6. Əliyeva J. Çağdaş türk şeirinin poetikası,Bakı,Elm,2000
7. Hacıyeva Maarifə.Türk aşıqları,Bakı,Elm,2004
8. Hüseynov R.Tofiq Fikrət,Bakı,Yazıçı,1981
9. Hüseynov R. Namıq Kamal,Bakı,Yazıçı 1990
10. Qasımlı Sədaqət.haldun tanerin bədii nəsri.Bakı,İrşad,1994
11. Quliyev E. Türkiyə türk ədəbiyyatı (XIX-XXəsrlər) Bakı,Orxan,2003
12. Quliyeva-Qafqazlı Xalidə.Qaracaoğlan.Bakı,Elm,1985
13. Qurbanov A.B.Əbdülhəq Hamid,Bakı,1987
14. Kərimov Ə.Türk aşıq poeziyası yeni mərhələdə.Bakı,Nurlan,2002
15. Rəsulov Ə.A. Türk sənədli-bədii nəsri.Bakı,Elm,Nurlan,2004
16. Kabaklı Ahmet.Türk Edebiyatı.5 cilddə.İstanbul1991
17. Köprülü Mehmet Fuat.Türk Edebiyatı Tarihi.İstanbul,Ötüken,1986
18. Kurdakul Şükran.Çağdaş Türk edebiyatı.Cumhuriyet Dönemi,İstanbul,1987
19. Kaplan M. Türk edebiyatı üzerine araştırmalar.İstanbul 1994
20. Korkut.R. Türk edebiyatında şairler ve yazarlar.Ankara,1970
21. Mutluay R. Çağdaş Türk Edebiyatı,İstanbul,1973
22. Tanpınar Ahmed Hamdi. 19 uncu asır türk edebiyatı tarihi. İstanbul,1997.

23. Айзенштейн Н.А. Из истории турецкого реализма.Заметки о турецкой прозе.Москва,Наука,1968
24. Ахмедов Р.С. Литературные процессы в новой турецкой литературе, Баку,2002
25. Алькаева Л.О. Из истории турецкого романа. 20-50 –ые годы XX века. Москва, наука ,1975
26. ГарбузоваВ.С. Поэты Турции XIX века. Ленинград,1970.
27. Гордлевский В.А. Избранные сочинения. Москва,1961
28. Кямилев Х. У истоков современной турецкой литературы. Москва,1967.
29. Маштакова Е. И. Турецкая литература конца XVII начала XIX века. Москва,Наука ,1984.
30. Меликов Т.Д. Турецкая поэзия 60-х начала 70-х годов. Москва,Наука ,1980.